*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 2* *ISSN 2663-4414*
*Səhifə: 55-62* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.2.55*

# Məmməd Araz və Erkin Vahidovun eyniadlı şeirlərinin müqayisəli-tipoloji təhlili

**Yaşar Qasımbəyli**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: yashargasimov@mail.ru

**Xülasə.** Məqalədə ötən əsrin 50-ci illəri və 60-cı illərin əvvəllərində milli ədəbiyyatlarda mühüm yer tutmuş mənəvi-estetik proseslərdən bəhs olunur. Həmin dövrdə Azərbaycan və özbək poeziyasında Vətən mövzusuna sıx-sıx müraciət heç də təsadüfi deyildi. Xüsusən, Azərbaycan və özbək altmışıncılarının yaradıcılığında vətənpərvərlik motivlərinin əks etməsi, Ana vətən və Ana torpaq obrazlarının ön mövqeyə çıxması diqqəti cəlb edir. Əli Kərim, Məmməd Araz, Xəlil Rza Ulutürk, Fikrət Qoca, Nəriman Həsənzadə, Hüseyn Kürdoğlu, eyni zamanda, özbək altmışıncılarından Erkin Vahidov, Abdulla Aripov, Rauf Pərfi, Məhəmməd Əli, Aman Mətcan, Camal Kamal və başqalarının poeziyasında bu təmayül qüvvətli idi. Məqalədə geniş və ətraflı təhlil olunan M.Arazın və E.Vahidovun eyni adlı – "Ana torpaq" şeirlərinin ideya-estetik pafosu tamamilə üst-üstə düşür. Müəllif bu şeirlərin müqayisəli təhlili əsasında hər iki poeziyada vətənpərvərlik təmayülünün ümumi və özünəməxsus xüsusiyyətlərini səciyyələndirir.
"Ana torpaq"ları tərif və tərənnüm edən şeirlər 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində Azərbaycan və Özbəkistan poeziyasında yeni bədii-estetik mərhələnin başlanmasında vətənpərvərlik mövzusundakı mənəvi axtarışların və poetik nümunələrin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini nümayiş etdirir.
**Açar sözlər:** "Ana torpaq", Vətən və poeziya, Azərbaycan altmışıncıları, özbək altmışıncıları, vətənpərvərlik təmayülü, Məmməd Araz, Xəlil Rza Ulutürk, Erkin Vahidov, Abdulla Aripov

**Məqalə tarixçəsi:** göndərilib – 04.10.2023; qəbul edilib – 17.10.2023

# Comparative-typological analysis of poems of the same name by Mammad Araz and Erkin Vahidov

**Yashar Gasimbeyli**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: yashargasimov@mail.ru

**Summary.** The article deals with moral-aesthetic processes occupying an important place in national literatures in 50s and early 60s of the last century. It was no coincidence that it was often addressed to the topic of Homeland in the Azerbaijani and Uzbek poetries in that period. In particular, reflection of motive of patriotism in the creative work of Azerbaijani and Uzbek poets of 60s, and the prominence of images of the motherland attract attention. In the poetry of Ali Karim, Mammad Araz, Khalil Rza Uluturk, Fikret Goja, Nariman Hasanzadeh, Husein Kurdoghlu, at the

same time, Uzbek poets of 60s Erkin Vahidov, Abdulla Aripov, Rauf Parfi, Mahammad Ali, Amamn Matjan, Jamal Kamal and others, this tendency was powerful. Idea-aesthetic pathos of the poems titled "Motherland" by M.Araz and E.Vahidov analysed comprehensively in the article, completely coincides. In both poetries the author characterizes common and special features of tendency of patriotism on the basis of comparative analysis of these poems.
The poems glorifying "Motherlands" demonstrates that moral searches and poetical samples in the topic of patriotism are important in starting of artistic-aesthetic stage in Azerbaijan and Uzbekistan literature at the end of 50s and beginning of 60s.
**Keywords:** "Motherland", Homeland and poetry, Azerbaijani poets of 60s, Uzbek poets of 60s, tendency of patriotism, Mammad Araz, Khalil Rza Uluturk, Erkin Vahidov, Abdulla Aripov

**Article history:** received − 04.10.2023; accepted − 17.10.2023

## Giriş / *Introduction*

Vətənə məhəbbət və yurdsevərlik kimi dərin mənəvi-əxlaqi fəzilətlərin nəsildən-nəslə miras olaraq keçməsini sadə və asan, mexniki tərzdə baş verən proses kimi təsəvvür etmək olmaz. Doğrudur, hər bir insan doğulub boya-başa çatdığı, ata-babalarının ömür-gün sürüb baş qoyduğu doğma məskəni sövqi-təbii sevir, bu torpağa bağlı olur. Amma bu təbii və anadangəlmə məhəbbətlə yanaşı, hər bir nəsil zamanın irəli sürdüyü "Mən neçün sevirəm Vətəni?" sualına da konkret olaraq cavab verməli olur. Millət mənəviyyatında yer tutmağa layiq olan, bədii təfəkkür tərəqqisinə töhfə verməyi bacaran əsl sənətkarların və ədəbi nəsillərin yaradıcılıq tərcümeyi-halı da bu cavabdan qaynaqlanır. Vətənə münasibət və sevginin orijinallığı isə nəticədə həmin ədəbi pleyadanın özünəməxsus ifadə tərzini, yeni məzmunlu estetik dünyagörüşünü, təkrarsız bədii inkas sistemini formalaşdırır.

## Əsas hissə / *Main Part*

Altmışıncıların başlanğıc bədii-fəlsəfi müşahidə və təhlillərinin, həyat və varlıq, insan mahiyyəti və qisməti haqqındakı gənclik düşüncələrinin çox vaxt ana yurd, ana torpaqla üzvi surətdə bağlı olan psixoloji vəziyyətlər və yaşantılar vasitəsilə ifadə olunması da fikirimizi təsdiq edir. Ümumən, yeni pleyadanın ilk qələm təcrübələrində Vətən motivinin aparıcı mövqeyə malik olması, Ana ilə bağlı şeir və silsilələrin üstünlük təşkil etməsi qeyd etdiyimizi poetik dövrün estetik mənşəyini, bədii anatomiyasını bizə əyani şəkildə anladır. Əli Kərim, Məmməd Araz, Xəlil Rza Ulutürk, Fikrət Qoca, Nəriman Həsənzadə, Şahmar Əkbərzadə, Ələkbər Salahzadə, Erkin Vahidov, Abdulla Aripov, Rauf Pərfi, Çolpan Erqaş, Camal Kamal, Aman Mətcan, Marif Cəlil, Həlimə Xudayberdiyeva, Aydın Hacıyeva və başqa altmışıncıların ana mövzusundakı, ana ilə bağlı şeirlərinin hamısını burada sadalasaq, çox uzun bir siyahı alınar. Məmməd Arazın "Üç oğul anası" (1961) "Anamdan yadigar nəğmələr" (1965) və Abdulla Aripovun "Anacan" (1967) kitablarını xüsusi qeyd etməliyik. Ümumən, bütün almışıncıların yaradıcılığında "Anama məktub" və "Ana məktubu" adlı şeirlərinin olması da vurğuladığımız tendensiyanın bədii gedişatda mərkəzi istiqamətlərdən biri olduğunu göstərir.

Beləliklə, aydın olur ki, yeni lirikada bədii inikas prinsiplərinin ilk əlamətləri Ana mövzusundakı şeirlərdə boy göstərməyə başlamışdı. Gənc şairlərin dəstxəttindəki təzəlik, Vətən ünvanlı bədii axtarışların mənbəyi də bu mövzudakı şeirlərlə bağlıdır. Dövrün bu yöndəki estetik axtarışlarını təsəvvür etmək və anlamaq nöqteyi-nəzərindən Məmməd Arazın "Ana torpaq" (1957) şeiri çox səciyyəvidir. Vətən idealının məzmunu və mahiyyəti bu şeirdə səmimiyyətlə ifadə olunur:

*Ana torpaq, ana torpaq!*
*Dilə gəldi sazım yenə.*
*Qoy eşqini varaq-varaq*
*Ürəyimə yazım yenə...* (Araz, s. 53)

Gənc şair Vətən şərəfinə yeni bir nəğmə yazmaq eşqi ilə alışıb-yanır. Ana yurd eşqini ürəyinə yazmağı əhd edir. Onun ürəyinə yazacağı – qəlbinə həkk edəcəyi o nəğmə yeni və təzə tər olmalıdır. Elə bu səbəbdən də bu ilahi məskəni tərənnüm etmək üçün o sonsuz xəyal gərəkliyini arzulayır. Ana yurd göylərini seyr etmək üçün qoca qartal qüdrətini diləyir: "Sənin qoynun bir asiman Dolanmağa xəyal gərək. Göylərini seyrə çıxan Bir qocaman qartal gərək" (Araz, s. 53). Gənc lirik "mən"i doğulub ilk dəfə ayaq basdığı torpağa bağlayan sirr və qüdrət nədir? Bu sirli sevginin və duyğunun önündə nəyə görə hər şey bir heçdir, mənasız və dəyərsiz bir əfsanədir: "Ana torpaq! Bəs bu ada Məni çəkən hikmət nədir? Sanıram ki, bu dünyada Sənsiz hər şey əfsanədir" (Araz, s. 53). Müəllifin fikrincə, doğma torpaqdan uzaqlarda keçən bir gün – neçə min ilin intizar və iztirabına bərabərdir. Bu çox gözəl və səmimi bir mübaliğədir:

*Sənsiz keçən bircə günü*
*Neçə min il sanaram mən.*

Amma gənc qələm sahibinin aşağıdakı misralarında başqa bir keyfiyyətdəki bədii təsvir vasitəsilə üz-üzə gəlirik. Yuxarıdakı mübaliğənin əksi sayıla biləcək həmin bədii fiqur – anti-mübaliğə, bizcə, daha tragik-emosional semantikanın daşıyıcısıdır:

*Sənsiz olsam, göy mülkünü,*
*Yer şarını danaram mən.*

Şair özünün ana torpaq duyğusunun adi olmadığını, təkrarsızlığını vurğulamaq istəyir. Düzdür, özünün də adi bir yer oğlu olduğunu etiraf edir, amma onun sevgisi özgə cürdür, daha dərindir: "Ana torpaq, ana torpaq! Bir oğluyam doğma yerin, Arzularım qucaq-qucaq, Məhəbbətim daha dərin..." (Araz, s. 53). "Ana torpaq" Məmməd Arazın fundamental vətəndaşlıq şeirlərindən biridir. Müəllif burada özünün və sevgisinin heç kimə bənzəmədiyini qəti şəkildə söyləməyə cəsarət edir. O, Ana yurd küləklərini – öz səsi-avazı, ona məxsus olan rübabı elan edir. Nəğməkar göy Xəzəri isə öz qəlbinə məhrəm və sevimli sazı adlandırır: " Ana torpaq, küləklərin Rübabımdır, avazımdır. Bu nəğməkar göy Xəzərim Ömrüm boyu bir sazımdır" (Araz, s. 53).

"Ana torpaq" şeiri Məmməd Araz "Azərbaycannamə"sinin dibaçəsidir. Gənc şairin ehtiraslı Vətən duyğuları bu şeirdən qaynaqlanıb. Sonsuz Vətən xəyalları sanki "Ana torpaq"dan güc alıb, qanadlanıb. Məmməd Arazın Araz nəğmələri, Naxçıvanla bağlı poetik kəşfləri, "Azərbaycan – dünyam mənim" şedevrinin mayasında məhz "Ana torpaq" dayanır. "Ana torpaq" müəllifn şəkillənməkdə və araya-ərsəyə gəlməkdə olan Vətən konsepsiyasının dəqiq mənəvi-estetik düsturudur: "Ana torpaq, körpəlikdən Nəfəs aldım nəfəsinlə. Ana torpaq, mən sevirəm, Hər qışımı, hər yazımı" (Araz, s. 53).

"Ana torpaq" şeirində poetik əhval-ruhiyyənin təbii və konkret ifadəsi diqqəti çəkir. Məsələn, aşağıdakı mətndə ovqatın son dərəcə əyani və görümlü ifadəsi qəlbinizi riqqətə gətirir. Sevgi duyğusunun bu qədər – bundan artıq yazıya köçməsinə, öz gözlərinizə inana bilmirsiniz: "Mən sevirəm Qafqazımı Südəmər bir körpə uşaq Anasını sevən kimi. Mən sevirəm Muğanımı Bala tərlan yuvasını sevən kimi..." (Araz, s. 54)

Xalq şairi Məmməd Araz haqqında indiyə qədər yazılmış tədqiqatlarda şair yaradıcılığının ana Vətən və ata yurdla möhkəm bağlılığı haqqında bir sıra qiymətli fikirlər söylənmişdir. Akademik İsa Həbibbəylinin "Xalq şairi Məmməd Araz" monoqrafiyasında hələ ötən əsrin doxsanıncı illərində irəli sürülmüş dəyərli elmi mülahizələr bu gün də yüksək elmi aktuallığını nümayiş etdirməkdədir: "Müasir Azərbaycan ədəbiyyatında görkəmli milli şairlərdən biri kimi geniş şöhrət

qazanmış Məmməd Araz ulu babalardan qoruna-qoruna gəlmiş, həmişə "çırpısı tətikdə, odunu dəmdə" olan, əli qabarlı tipik bir Azərbaycanlı ailəsində böyüyüb tərbiyə almışdır. Onun milli ruhlu şair-vətəndaş kimi formalaşmasında "Çadırdaş ətəyi, Nursu bulağı"ndan başlamış "qaynar bulaqları qanında qaynayan" səfalı Şahbuz, "ürəyinin bir parçası" saydığı doğma Naxçıvan, habelə bütün Azərbaycanı əhatə edən ictimai-coğrafi mühit və ədəbi iqlim fəal iştirakçı olmuşdur. Bununla belə, Məmməd Arazın ata ocağı sözün həqiqi mənasında bütöv bir xalqı və böyük bir Vətəni təmsil edən ümumiləşmiş Azərbaycan ocağıdır. Şair nəsillərdən-nəsillərə keçib gəlmiş bu tarixi ocağın layiqli varisi, etibarlı od qoruyanıdır. Xalq şairinin yaradıcılığında 40 ildən artıq çağlamaqda davam edən Azərbaycan ruhu, bənzərsiz Vətən duyğusu və milli ideyalar həqiqi və geniş mənada öz odunu-qorunu təmiz, müqəddəs "ata ocağı"ndan – Vətəndən alır" (Həbibbəyli, s. 15).

Şairin nəğməkar qəlbi doğma yurd-yuvanı vəsf etməkdən doymur və nə qədər ilhamla, coşub-daşıb Vətən şərəfinə təriflər söyləsə də, ana yurd eşqinin tükənməzliyini, sonsuzluğunu aydın dərk edir: "Ana yer, sən sədəfli saz, Mən nə deyim bu saz haqda. Sənin eşqin vəsf olunmaz Beş varaqda, on varaqda..." (Araz, s. 54). Lirik "mən"in estetik yaddaşında ana yurd şərəfinə söylənmiş ən füsunkar və cazibədar nəğmələr sıralanır. Amma onlar gənc lirik "mən"i ruhdan salmır, qorxutmur. O, Vətənin bundan da çox və böyük tériflərə layiq olduğunu bütün varlığı ilə anlayır. Yeni-yeni Vətən şairlərinin və şeirlərinin doğulmasını arzulayır: "Ana torpaq, qüdrətini Vəsf eləyən şair varmı? Sənin dərya şeiriyyətin Bir üəryə sığışarmı?" (Araz, s. 54).

Nəhayət, Məmməd Araz Vətəni necə sevmək gərəkliyini, başqa sözlə, hansı dərəcələrdə duymaq və vəsf etmək zərurətini vurğulayır. Şair ana yurdu tərənnüm etmək üçün Bülbül olmaq istəyir. Yəni bülbül gülü sevdiyi tək sevmək istəyir:

*Bülbül olsam, ömrüm boyu,*
*Bağlarını dolanardım.*

Məüllifin seçdiyi və sevdiyi başqa bir məftunluq və vurğunluq timsalı isə qartal obrazı ilə bağlıdır. Qartal başı qarlı dağların başına dolandığı kimi, qartal dağlara bağlandığı kimi, "mən" də ana torpağa o cür bağlanmaq gərəkliyini düşünür:

*Qartal olsam, başı qarlı*
*Dağlarını dolanardım.*

Şairin başqa bir seçimi də gözəl və heyrətamizdir. O küləklər kimi yorulmadan ana yurd torpaqlarını gəzib-dolanmağı, Vətən çöllərinin-çəmənlərinin saçlarını sığallamağı ürəkdən arzulayır:

*Külək olsam, çöllərinin*
*Saçlarını darayardım.* (Araz, s. 55)

Şair Vətən təsəvvürünü formalaşdırmaq, Vətən duyğusunu oyatmaq və dərinləşdirmək məqsədi ilə ana yurdun təbii portretini gözlərimiz önündə canlandırır. Bütün varlığı ilə Vətənin təbiətini vəsf və təsvir edir. Yəni, Vətən havadır – aldığımız nəfəsdir. Vətən payızımız, qışımız, baharımız, yazımızdır. Müəllifin ilk baxışda sadə, amma son dərəcə dərin və geniş istiarəsi həyatiliyi ilə qəlbinizi ovsunlayır: "Mən sevirəm Qafqazımı Südəmər bir körpə uşaq Anasını sevən kimi". Şairin əyaniləşmiş və təbii təsviri Vətənin izahlı lüğəti, sadə və dahiyanə Vətən dərsliyi təsiri bağışlayır: "Mən sevirəm Muğanımı Bala tərlan yuvasını sevən kimi...".

Məmməd Arazın lirik "mən"i cəsarəti, elsevərliyi və fədakarlığı ilə oxucunu heyrətləndirir:

*Günəş olsam, səndən ayrı*
*Alışmazdım bir an belə.*

Lirik qəhrəman günəş kimi ana yurdunun hər qarışını, hər bir guşəsini işıqlandırmaq istəyir. Bu dərəcədəki məftunluq daha çox gənc və təbii istedadlara xas bir keyfiyyətdir. Ana Vətənə

vurğunluq, fədayilik və fədakarlıq, onun uğrunda hər şeydən keçməyə və hətta ölməyə belə hər an hazır olmaq 60-cı illərdəki gənc Azərbaycan poeziyasında ən diqqətəşayan və aparıcı motivlərdən biri idi. Məmməd Arazın ən istedadlı qələm dostları, yaşıdları Əli Kərim, Xəlil Rza Ulutürk və b. məhz bu cür qarşısıalınmaz və yenilməz duyğularla yaşayırdılar. Vətən və vətəndaş birliyini, ayrılmazlığını aşağıdakı misralardan da sərrast və səmimi ifadə etmək təsəvvürə sığışmır:

*Bir damla da sayılmazdım*
*Sənsiz olsam ümman belə.* (Araz, s. 55)

O illərin ədəbi gəncliyinin misilsiz fədakarlığını və sonsuz bir ehtirasla ana torpağın bir parçasına çevrilmək, Vətənə dönmək və vətənləşmək duyğusunu isə bu misralar öz bağrında hifz edib yaşatmaqdadır.

*Bulud olsam, hər düzünə*
*Bir çoşğun çay bəxş edərdim.*
*Öz eşqimi naxış-naxış*
*Hər daşına, hər qayana nəqş edərdim.* (Araz, s. 55)

Filologiya elmləri doktoru Vaqif Yusifli "Məmməd Araz dünyası" kitabında şairin Vətən sevgisinin və vətənpərvərlik duyğularının özünəməxsusluğunu və hədsiz səmimiliyini vurğulayaraq yazırdı: "Vətən haqqında poeziya yaranandan yüzlərlə, minlərlə şeirlər yazılıb və nə qədər ki, Vətən hissi, Vətən sevgisi var, poeziyanın ürəyi olan bu mövzu da yaşayacaq. Məmməd Arazın da Vətən haqqında onlarla şeiri var, lakin bu şeirlərsiz də şairin bütün şeirlərinin, demək olar ki, əvvəli də, axırı da Vətəndir. Vətən adı çəkdiyi şeirlərində də belədir, çəkmədiyində də..." (Yusifli, s. 37).

Məmməd Arazın gənc lirik qəhrəmanı sadəcə romantik bir qəlb və sevgi sahibi deyil. O, eyni zamanda, Vətənin taleyi və gələcəyi üçün ciddi addımlar atmağa hazır olan yenilməz bir igid və mücahiddir. Düşmənlərə qarşı barışmaz və amansız bir vətənpərvərdir: "Şimşək olsam, dar günündə Enib yerdə çaxardım mən. Düşmənini bir andaca Yandırardım, yaxardım mən" (Araz, s. 56).

Aşağıdakı misralarda müəllifin müraciət etdiyi "şahin" obrazı da ana torpaqlara ünvanlanan bu sevginin mübariz və döyüşkən keyfiyyətə malik olduğunu bir daha vurğulayır.

*Şahin olsam, göylərində*
*Yüz il, min il süzərdim mən,*
*Ulduzları qanadıma düzərdim mən".* (Araz, s. 56)

Müəllif öz sənətinin gücü ilə Vətəninə kömək etmək istəyir. Qələmin qüdərti ilə ana Vətəni müdafiə etmək, daha da qüdrətləndirmək, onun ömrünü əbədiyyətə çatdırmaq və qovuşdurmaq istəyir. Məmməd Arazın Vətənə sonsuz məhəbbəti və onun ana torpaqla bağlı böyük poetik arzuları ilk gənclik şeirlərindən birində - "Ana torpaq"da məhz bu cür bədiiləşmişdi: "Yox, ana yer, qələmin də Öz gücü var, öz adı var. Şeirin, sözün şahinləri Yoran xəyal qanadı var. Yox-yox, mənim söz tərlanım Şimşəklərlə ötüşəcək, Mənim şeir yelkənimə Dərya gərək, ümman gərək... Ana torpaq, əzəl gündən Gül-çiçəkli yazım sənsən. Ömrüm boyu könül səsim, bir də könül sazım sənsən. Ana torpaq, qüdrətini Vəsf eləyən şair varmı? Sənin dərya şeiriyyətin Bir ürəyə sığışarmı?" (Araz, s. 57).

Kifayət qədər iri həcmli bir şeirin poetik suallarla yekunlaşması çox düşündürücüdür. Gənc şair yeni poetik eranın sübh çağı bu sualları özünə və ədəbi mühitinə ünvanlayırdı. "Ana torpaq, qüdrətini Vəsf eləyən şair varmı?" deyə öz qələm yoldaşlarına üzünü tuturdu. Sanki gənc müəllif bununla biz ana yurddan, ana torpaqdan az yazırıq, demək istəyirdi.

Həqiqətən də, bu şeirin yazıldığı çağlarda Azərbaycan haqqında yeni poetik nəslin böyük nəğmələri hələ şair ürəklərində bəslənirdi, doğulmamışdı. Elə Məmməd Arazın Azərbaycanla bağlı bir çox böyük şeirləri də gənc şairin ilhamında, təxəyyülündə nəfəs alırdı. Hələ Vətən torpağına enməmişdi. Maraqlıdır ki, Məmməd Arazın ədəbi zamandaşı və qələm qardaşı Erkin Vahidov da eynən həmin çağlarda bənzər və əkizlər kimi yaxın, doğma duyğularla öz doğulduğu ana torpağı

tərənnüm etməyə başlamışdı. Məhz bu cəhətdən və formalaşmaqda olan yeni estetik dünyagörüşünün və bədii inkas üsulunun tədrici təzahürlərini nəzərdən keçirmək üçün Erkin Vahidovun yaradıcılığı da münbit şərait yaradır. Eynən Məmməd Arazın "Ana torpaq" şeirində olduğu kimi Erkin Vahidovun "Ana torpaq" (1959) şeirində də gənc özbək şairinin lirik qəhrəmanı ana torpaq müqəddəsliyinin səbəbləri haqqında düşünür:

*Niyə insan yerə qutlu der,*
*Torpağı da sanır müqəddəs?*
*Yox, əziz ola bilməz yer,*
*Torpaq özü müqəddəs olmaz.* (Vohidov, s. 72)

İnsan nəyə görə dünyaya gəldiyi məskəni təbərrük və əziz bilir? Ata-babalarının yaşadığı, sevdiyi torpağı müqəddəs hesab edir? Şairin lirik "mən"i də belə mürəkkəb və dərin suallara cavab axtarır:

*Əvvəl həmin yer üzərinə*
*Adam tökdü alnından tər.*
*Ruzu çıxdı ana torpaqdan,*
*Əziz oldu onunçün bu yer.* (Vohidov, s. 72)

Deməli, ana yurd torpağının qiyməti yoxluğunun və əvəzsizliyinin əsl səbəbi onun xalq övladlarının alın təri ilə yoğrulmasıdır. Ancaq bu da hələ hamısı deyil. Ana torpağın tayı-bərabəri olmamasının daha bir mühüm və baş səbəbi var. Gənc şair Vətən duyğusunun mahiyyətini həssalıqla açır:

*Öz mübarək torpağın insan,*
*Yad nəzərdən gözlər hər nəfəs,*
*Onu qucub fəda etdi can,*
*Qanı ilə etdi müqəddəs.* (Vohidov, s. 72)

Göründüyü kimi, şair cəmi dörd bəndlik – on altı sətirlik lirik bir şeirdə Vətən müqəddəsliyi anlayışını sadə bir ardıcıllıqla, adi həyati arqumentlərlə fəlsəfi cəhətdən təhlil etməyə və onu özünəməxsus şəkildə poetik mənalandırmağa nail olur. Maraqlı və sevindirici cəhəti ondadır ki, gənc Erkin Vahidovun Vətən fəlsəfəsi ilə böyük türk şairlərindən birinin vətənpərvərlik görüşləri və Vətən tərifi bir-biri ilə hədsiz həmahəngdir:

*Bayraqları bayraq yapan*
*üstündəki al qandır,*
*Torpaq, əgər uğrunda ölən varsa,*
*Vatandır.*

Deməli, Erkin Vahidov şeirin birinci bəndində söylədiyi kimi, torpaq öz-özünə və heç bir səbəbsiz mübarək və mötəbər ola bilməz. Ana torpağın müqəddəsliyinin əsas səbəbləri – onun millətin əcdad və övladlarının pak alın təri ilə və qızıl, qutlu qanı ilə yoğrulmasıdır. Etiraf etməliyik ki, həyat təcrübəsi o qədər də zəngin olmayan və hələ çox cavan olan lirik "mən"in həyati-əxlaqi xülasələri son dərəcə ibrətli idi:

*Yox, mötəbər deyil, əsla yer,*
*Qutlu deyil, torpaq heç zaman,*
*Mübarəkdir insan tökən tər,*
*Müqəddəsdir qutlu, qızıl qan.* (Vohidov, s. 72)

Bu cəsarətli poetik manifest və məramnamələr tamamilə yeni etiqad və görüşlərə malik ədəbi qəhrəman doğulmasından xəbər verən nişanələr idi. Prof. Azad Şərəfəddinov Erkin Vahidovun erkən

lirikası haqqında aşağıdakı mülahizələri bildirərkən haqlı idi: “Erkin Vahidov şeiriyyətində diqqəti cəlb edən və ən cazibədar duyğulardan biri Vətən sevgisidir. Onun gənc lirik qəhrəmanı Ana Vətənə sonsuz məhəbbət duyğularından güc alır, qəlbindəki vətən sevgisini bütün duyğu və yaşantılardan üstün bilir. Abdullar Aripov, Rauf Pərfi, Aman Mətcan, Məhəmməd Əli, Camal Kamal və başqa yaşıdları kimi Erkin Vahidov poeziyasında da vətənpərvərlik ən qüdrətli ictimai duyğudur. Gənc şairin ilk uğurlu şeirlərindən biri olan “Ana torpaq” fikirlərimizi parlaq şəkildə təsdiq etməkdədir” (Şarafiddinov, s. 272). Hökmran zamanın “Qara dənizdən ta Saxalinə qədər” absurd Vətən anlayışı və təsəvvürləri ilə yaşayan sələflərdən fərqli olaraq, yeni poetik nəsil saxta və siyasi Vətən inamından imtina edərək real Vətənə doğru ciddi addımlar atırdı.

Poetik Vətənnaməmizin həmin illərdə ilhamla yazılmış səhifələrini qürurla vərəqləyərkən Vətən məfhumunun bədii təlqinindəki ardıcıllığın tədrici hərəkəti diqqəti cəlb edir. Vətən anlayışının mahiyyətini dərindən anlamağa, onun miqyasını və hüdudlarını müəyyənləşdirməyə güclü bir həvəs, ehtiraslı bir canatma hiss olunur. Ana yurd torpağının tayı-bərabəri olmadığını vurğulamaqla bir tərəfdən gənc şairlər milli özünəməxsusluğu, ikinci tərəfdən isə öz poetik dəst-xətlərinin təzəliyini göstərməyə can atırdılar. Altmışıncıların yaradıcılığında yeni bədii inikas prinsiplərinin görünməyə başlaması və dərinləşməsi Vətən duyğusunun ifadəsi ilə yanaşı reallaşırdı. Başqa sözlə, Vətən kompleksi altmışıncıların bədii özünüifadəsində əsas dayaq nöqtəsi və mənəvi enerji mənbəyi kimi mühüm rol oynayırdı.

## Nəticə / *Conclusion*

“Ana torpaq”ları tərif və tərənnüm edən şeirlər 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində Azərbaycan və Özbəkistan poeziyasında yeni bədii-estetik mərhələnin başlanmasında vətənpərvərlik mövzusundakı mənəvi axtarışların və poetik nümunələrin nə qədər mühüm əhəmiyyət kəsb etdiyini nümayiş etdirir. Xalq şairi Məmməd Arazın və görkəmli özbək altmışıncılarının bu mövzulardakı ilk qələm təcrübələrinin qısaca elmi-nəzəri müqayisəsi belə o dövrdə yeni Vətən konsepsiyasının və estetik dünyagörüşünün birdən-birə deyil, tədricən meydana gəldiyini və formalaşdığını əyani şəkildə göstərir. Hər iki xalqın bədii təfəkküründə silinməz izlər qoymuş yeni və məşhur “Azərbaycan”lar, “Özbəkistan”lar məhz gənc şairlərin ilhamla və kövrək bir sevgi duyğuları ilə qələmə aldıqları “Ana torpaq”lardan doğulmuş, ərsəyə gəlmişdi!..

## Ədəbiyyat / *References*

Araz, M. (2004). *Seçilmiş əsərləri* (Cild I). Bakı: Ozan.

Həbibbəyli, İ. (1999). *Xalq şairi Məmməd Araz.* Bakı: Azərbaycan.

Şarafiddinov, O. (1989). *Hakikatqa sadokat.* Toşkent: Ğafur Ğulom nomidaqi Adabiyot va sanat naşriyoti.

Vohidov, E. (1986). *Muhabbatnoma* (Cild I). Toşkent: Ğ.Ğulom nomidaqi Adabiyot va sanat.

Yusifli, V. (1994). *M.Araz dünyası.* Bakı: Şur.

# Сравнительно-типологический анализ одноименных стихотворений Мамеда Араза и Эркина Вахидова

**Яшар Гасымбейли**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: yashargasimov@mail.ru

**Резюме.** В статье говорится о духовно-эстетических процессах, занявших значительное место в национальных литературах 50-х – начале 60-х годов прошлого века. Частое обращение к теме Родины в азербайджанской и узбекской литературе того периода вовсе не случайно. Особое внимание вызывает выход на первый план мотивов выражения патриотизма, образов Матери-Родины и Матери-земли в творчестве азербайджанских и узбекских шестидесятников. Эта тенденция получила силу в поэзии наших Али Керима, Мамед Араза, Халил Рза Улутурка, Фикрета Годжи, Наримана Гасанзаде, Гусейна Кюрдоглу, а также узбекских шестидесятников – Эркина Вахидова, Абдуллы Арипова, Рауфа Парфи, Мохаммеда Али, Амана Матджана, Джамала Камала и других. В статье обширно и обстоятельно исследовано идейно-эстетическое созвучие одноименных стихотворений Мамеда Араза и Эркина Вахидова под названием «Мать-земля». При сопоставительном анализе этих стихотворений автор статьи приводит оценку тенденции патриотизма в обеих поэзиях и выявляет их общие и самобытные особенности. Стихотворения конца 50-х – начала 60-х годов, прославляющие «Мать-землю», демонстрируют большое значение начала в азербайджанской и узбекской поэзии периода новых духовных поисков художественно-эстетического направления и поэтических образцов на тему патриотизма.
**Ключевые слова:** «Родная земля», Родина и поэзия, азербайджанские шестидесятники, узбекские шестидесятники, патриотическая тенденция, Мамед Араз, Халил Рза Улутурк, Эркин Вахидов, Абдулла Арипов